

# یول بایراملیق

Türk Dünyasına Gedən bir Yol

yol1.topcities.com

یول / هفته نامه‌ی خبري دانشجویان تورك دانشگاه تهران / شماره‌ی ۴۳/ یکشنبه ۸۲/۱۲/۲۴ – ۱۳ ملرس ۲۰۰۴/ قیمت ۱۰ تومن


## یول: سئویملی اوشاقلار، اوغوز بایرامینیز قوتلو اولسون!

Hər Millətin həyatında, məişətində çoxlu bayramlar olsa da, onlardan biri daha məşhur, daha sevimli olur. Azərbaycan Millətinin eləliklə keçirdiyi belə bir bayram Oğuz bayramıdır. Adamlar Oğuz bayramının pişvazına çıxarlar. Onu nəğməylə qarşılayarlar:
Güllər, güllər nübara,
Bağçamızda gül olsun,
Gül olsun bülbül olsun,
Bahar gəldi, Bahar gəldi, Xoş gəldi,
Xəstə könül onu görcək dirçəldi.
İlin son çərşənbəsində həyətlərdə tongal yandırılır. Tonqalın üstündən hoppanıb köhnə ilin azar-bezarı da yandırılır. Odun üstündən hoppananlar nəğmələrdə oxuyarlar.
Ağrım-uğrum tökülsün,
Oda düşüb kül olsun.
Yansın alov saçılsın,
Mənim bəxtim açılsın.
İnama görə, Oğuz bayramı axşamında hər kəs gərək öz evində olsun. Həm də hamı dərd-qəmi unudub şən ovqatlı olmalıdır. Onda bütün il adam üçün elə belə keçər. Oğuz bayramı günündə adamlar taza paltarlarını geyib bir-birinin evinə bayram təbrikinə gedər, hədiyyələr apararlar. Bayramlaşmağa gələnlər üçün süfrəyə Oğuz munasibətilə bişirilmiş şəkərbura, paxlava, qoğal və başqa şirniyyatlar, çərəzlər düzülür. Oğuz bayramında kin-küdürət unudulmalıdır. Heç kəs gərək bir-biri ilə küsülü qalmasın. Oğuz bayramı yadda bolluq, xeyirxahlıq, gözəllik bayramı kimi qalır.

## TAPMACALAR



UŞAQLAR

1. Ayağı yoxdur, qaçır,
Qanadı yoxdur, uçur ..........
2. Qəndə oxşar dadı yox,
Göydə gəzər qanadı yox ........
3. Göydə doğular,
Yerdə boğular .........
4. Bostanda var bir arvad,
Paltar geyib qatbaqat ..........
5. Ağzın açar, zəhər saçar,
Onu görən geri qaçar .......

## üşüdüm hay üşüdüm

üşüdüm hay üşüdüm
Dağdan alma daşıdım
Almacığımı aldılar - Mənə zülum dedilər
Mən zülumdan bezaram
Dərin quyu qazaram
Dərin quyu beş keçi - Hanı bunun ərkəki?
Ərkək qazanda qaynar
Qənbər yanında oynar
Qənbər getdi oduna - Qarqu batdı buduna
Qarqud gəlmiş qəmişimiş
Beş barnağı gümüşimiş
Gümüşü verdim tata -Tat mənə darı verdi
Darını səpdim quşa - Quş mənə qanad verdi
Qanadlandım uçmağa -Haq qapısın açmağa
Haq qapısı kilidli - Kilidi dəvə boynunda
Dəvə Şirvan yolunda - Şirvan yolu ...

## Yaz günləri



Gəl, gəl a yaz
günə ri!
İlin əziz günləri!
Dağda ərit qarları,
Bağda ərit qarları:
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-
ləçək





## Bulmaca (latin)

←



۱- یئرین اوجا یئرلری
۲- تصدیق کلمه‌سی
۳- گویده اوچار
۴- گوزون اوستونده
۵- آنام منه گون اورگدیب، آی اورگدیب، ایل اورگدیب، اَن واجیبی .... اورگدیب
۶- بیز قوزئی آذربایجانلیلارلا دیل.... یق
۷- .... بیرلیکده‌دیر
۸- آت بالاسی
۹- دانیشاندا آغزیمیزدان چیخار
۱۰- آی‌ایله قووالاقاشدی اوینالار، بیربیرنه چاتمازلار
۱۱- اوجا داغلارین پاپاغی
۱۲- آپاردی ....لر سارایی
۱۳- بیزی دونیایا گئتیرن، دیلیمیزی اورگه‌ده‌ن.
۱۴- اوغوز بایرامی اونا سون قویور.
۱۵- آشیقلار اونو چالاللار.
۱۶- آذربایجانین اورتاسیندان آخان چای
۱۷- یاخجی ده‌ییل
۱۸- تورکلرین توتئمی و سئویملی مقدس حئیوانی.
۱۹- آری اونو گوللرده‌ن اَله گتیریر و چوخ شیریندی
۲۰- قدیم آشیقلار و ساز چالانلارا دییردیلر
۲۱- اونو اونویلا یومازلار
۲۲- دونیادا و آذربایجاندا آدلیم بیر شور گؤل
۲۳- الینیزده اولان مجلله‌نین آدی.

(بولماجانی لاتین حرف‌لری‌ایله دولدورون)

بولماجانین رمزینی حاشییه وورولموش خانه‌لرین حرف‌لرین بیر بیرینین یانینا قویماقلا تاپا بیلرسینیز.

## پروفسور دوقتور محمد تقی ذهتابی

دوقتور محمد تقی ذهتابی گونئی آذربایجانین ان گورکملی یازیچی‌سی‌دیر. ۱۳۰۲ هـش. آنادان اولدو. ان بویوک بو یازیچی‌دان چوخلو اثر قالیبدیر. اونلارین ایچینده اوشاقلار و گنج‌لر اوچون یازدیغی شعر و ناغیللار آز دئییل‌دیر. اوز آنا دیلینی اویره‌نمک اوچون ایللر بویو سورگونده قالدی. چالیشدی آما سینمادی. آنا دیلینده علاوه عرب، فرانس، فارس و روس دیلینی‌ده یوکسک درجه‌ده اویرندی. اونون نهنگ اثرلی *«ایران تورکلرینین اسکی تاریخی»* ایکی جیلدده چاپدان چیخیبدیر. او ۷۵ ایل بارلی عومور سوره‌نده‌ن سونرا آذر آیینین بیرینده دوغولدوغو شهرده توکنمز ابدییته قوووشدو.

روحو شاد یولو داواملی

## Qarğa və Tülkü





Qarğa bir tülkü balasının gözünü dimdikləyib çıxartmişdi, tülkü çox acıqlanmş dı. Qarğa əlinə düşmürdü ki, ondan əvəz alsın.
Çox düşündü, axırda axtardığını tapdı. O bir dəfə qarğanın gəldigini görüb yerə uzandı, özünü ölülüyə qoydu. Qarğa elə bildi ki, tülkü doğrudan olmuşdur. Uçub yaxına gəldi, Tülkünün eşiyə çimiş dilini dimdikləmək istədi, ancaq qorxdu Qarğa əvvəlcə tülkünün quryuğunu dimdikləyib qaçdı. Tülkü tərpənmədi. Qarğa yavaş-yavaş Tülkünün ağzına tərəf gəldi ki, dilini dimdikləsin, Tülkü atılıb onu tutdu.
Tülkünün ürəgi çox yanmışdı. O dedi:
-Qarğa sən balamın gözünü çıxartmısan, indi səni yaman dərd ilə öldürəcəyəm.
Qarğa yalvarmağa başlad
- A Tülkü lələ, məni necə öldürəcəksən öldür, Ancaq dəryaya atma. Sudan yaman qorxuram, çünkü üzmək bacaramıram.
- Tülkü bu sözdən sevinib dedi:
- Aha yaxşı oldu, səni gərək elə dəryaya atam, bəlkə ürəyim soyusun.
Tülkü qaça-qaça getdi, dərya kənarinda ki, uca qayanın başına çıxdı. Qarğa çox yalvardı:
-A Tülkü lələ, amandır, məni balavın başına çevir nə edirsən et, amma suya atma.
-Tülkü Qarğanın yalvarmasına baxmadı, onu qayadan başı aşağı buraxdı. Qarğa:
-Qağ...qağ... edərək üçdü və qabaq tərəfdəki qayaya qondu.
-Tülkü kör peşman baxıb dedi.
-Qarğa məndən hiləgər imiş.

## Aslan və iki öküz



Otlaqda iki öküz otlayırdı. Ac aslan onları görüb çox sevindi. O fürsət tapıb öküzlərə hucum etdi. Öküzlər daldala verib, buynuzları ilə aslanı qovdular. Aslan onların birliyini görüb, qorxudan geri çəkildi. O, hiləyə əl atdı. Öküzlərin birinə yanaşıb pıçıldadı: - Əzizim bax bu gözəl otlağı sənə veriyəm. Dadlı odlardan nə qədər istəyirən ye! Ancaq o, boz öküzlə gəzmə. Buna əməl etsən sən ilə işim yoxdur. Ağılsız öküz aslanın vədəsinə aldanıb, vəfalı yoldaşından uzaqlaşdı. Bunu görən aslan fürsət tapıb, yalqız qalan öküzü parçalayıb yedi. üç gündən sonra aslan yenidən acalıb, gəlib aldanmış öküzü parçalayıb onuda yedi. Uşaqlar namərdin qaydasıdır, ayırar dostu dostdan.



## Atalar sözü

✸Ağac bar verəndə başını aşağı əyər.
✸Ağil başda olar, yaşda olmaz.
✸Bir əldə iki qarpız tutmaq olmaz.
✸Qələmin ucu, qılıncın gücü
✸Qorxan gözə çop düşər.
✸Quyuya su tökməklə quyu dolmaz.
✸Dəmiri nəm çürüdər, insanı qəm.
✸Dağ-dağa qovuşmaz, insan-insana qovuşar.
✸Doğru söz acı olar.
✸Dost başa baxar, düşmən ayağa.
✸Dost dar gündə tanınır.
✸Itə ataram, yada satmaram.
✸Işləməyən dişləməz.
✸Söz qılıncıdan kəsərlidir.
✸Hər şeyin təzəsi, dostun köhnəsi.
✸Yalan söz üz qızardar.
✸Nə əkərsən, onu biçərsən.

صاحب امتیاز و مدیر مسئول:
علی محمدی

هیئت تحریریه:
علیرضا فرشی، علی محمدی

مسئول توزیع: حجت پاشاپور و عباس انگوتی

یول روزهای یکشنبه در دانشگاهها توزیع می‌گردد.
آدرس پست اکترونیکی:
tdgbyol@yahoo.com
تلفن تماس: آلپای فضلی ۰۹۱۲۳۳۳۰۳۸۳

بچه‌های عزیز با آرزوی سالی خوش برای شما، منتظر جواب سوالات این مجموعه از طرف شما می‌باشیم. به تمامی جوابهای ارسالی صحیح جوایزی در نظر گرفته شده است. جوابهایتان را به آدرس: تهران، خیابان ۱۶ آذر، ساختمان فولاد، واحد نشریات دانشجویی ارسال نمایید. زیاد هم شیرینی نخورید!

## Yaşa-yaşa Azərbaycan

Ey vətənim Azərbaycan
Odlar yurdu san bir nişan
Sən böyürtdün qəhrəmanlar
Adlı sanlı keçmişin var
✸✸✸
Sən-sən bizə **Ana vətən**
Sən-sən bizə qeyrət verən
Sən-sən bizi güclləndirən
Yaşa-yaşa Azərbaycan.
✸✸✸
Qoca şərqin çırağısan
Azadlığın ocaqısan
Sən qurduğun şanlı həyat
Xalqımıza verər nəcat
✸✸✸
Sən-sən bizə **Ana vətən**
Sən-sən bizə qeyrət verən
Sən-sən bizi güclləndirən
Yaşa-yaşa Azərbaycan.
✸✸✸
Xalqıların sırdaşısan
Məhrumların yoldaşısan
Zülmülərə son qoyacaq
Qalx ayağa Azərbaycan
✸✸✸
Sən-sən bizə **Ana vətən**
Sən-sən bizə qeyrət verən
Sən-sən bizi güclləndirən
Yaşa-yaşa Azərbaycan.
✸✸✸
Haqqımızı almalıyıq
Yolunda qan verməliyik
Qurtuluşa qalxmalısan
Qalx güclənək Azərbaycan
✸✸✸
Sən-sən bizə **Ana vətən**
Sən-sən bizə qeyrət verən
Sən-sən bizi güclləndirən
Yaşa-yaşa Azərbaycan.

## Bir azda gülək



**✸ Balaca uşaq burnu qanlı evə gələn zaman anası ondan soruşdu:**
**- Nə olubdur?**
**- Bir oğlan məni vurdu!**
**- Oğlanı görsən tanıya bilərsənmi?**
**- əlbətd ki tanıyaram. Onun qulağı mənim cibimdədir**
**✸- Bağışlayınız, sizin inəkləriniz sığara çəkirlərmi?**
**- Yox necə, kəndli təəccüb ilə cəvab verdi.**
**- Bəs onda övlə od tutubdur.**
**✸Xanım müəllim:**
**-Uşaqlar, indi mən istəyir m əvvəlcə yerüzündə tapılan iki insandan danışam.**
**Öyrəncilərin birisi: Xanın müəllim bunu biz bilirik; de görək üçüncü adam necə tapıldı.**